# Biganə qalmayaq

*Yaşadığımız Qəbələ rayonu Azərbaycanımıza Allahın bəxş etdiyi gözəlliklərdən, zənginliklərdən ən çox nəsib alan bölgələrdən biridir. Bü bölgənin təbii gözəlliklərini təsvir etmək çox böyük istedad tələb edir. Bu gözəllikləri ancaq görməklə duymaq mümkündür. Son illər təbiətin rayonumuza verdiyi gözəlliyə insanların əlilə əlavə gözəlliklər qatılıb. Bu illər ərzində yüksək arxitektura və memarlıq ənənələrinə uyğun çox sayda gözəl tikintilər ucaldılıb, parklar, istirahət-əyləncə mərkəzləri yaradılıb, gözəl Qəbələmizdə.*

Bütün bunlar gözəldir və insanların zövqünü oxşayır. Eyni zamanda bu gözəlliklər iqtisadi vəziyyətə də müsbət təsir göstərir. Rayona gələn turistlərin sayı ildən-ilə artır.

Bunları yazarkən məni düşündürən bir məsələni qeyd etmək istəyirəm. Yuxarıda qeyd etdiyim gözəllikləri çirklənmədən qoruyub saxlamaq hər birimizin vətəndaşlıq borcudur. Əslində belədirmi? Əlbəttə yox. Əvvəllər ancaq böyük şəhərlərdə məişət tullantılarının bəzən problem yaratdığının şahidi olurduq.

Təəssüf ki, bu gün məişət tullantıları ən ucqar kəndlərə belə gəlib çatıb. Gözümüz önündə ana qoynu, ana qucağı olan təbiətimiz bəziləri tərəfindən zibillənir, çirkləndirilir, biz isə bunu görə-görə susuruq. Yol kənarlarına növbənöv içki şüşələri, uşaq bezləri, selafan paketlər, nələr-nələr atılır. Biz isə görməməzliklə bütün bunların yanından ötürük. Təkcə evimizi, həyətimizi təmiz saxlamaqla işimizi bitmiş hesab edirik. Halbuki, bu tullantıların 90 faizindən çoxunu həyətlərimizdə quyu qazıb zərərsizləşdirmək olar. İşlənilmiş şüşə qablara gəldikdə isə onların alınaraq təkrar emala verilməsi təşkil olunarsa bu tullantılardan bir dəfəlik qurtarmaq mümkündür. Yaşlı nəsil əvvəllər işlənmiş butulkaları toplamaqla özünə çörəkpulu çıxaranları, hətta avtomobil belə alanları unutmayıb. İndi isə həmin dövrdən yüz dəfələrlə artıq şüşə qabda olan məhsullar əhali tərəfindən istehlak olunur. Şüşə qab isə sadəcə lazımsız bir əşya kimi ətrafa tullanır, ətrafı uzun illər boyu çirkləndirməklə yanaşı onların qırıntıları təbiətdə istirahət edən, işləyən insanlara, bütün canlılara təhlükə törədir.

Hörmətli oxucular, gəlin ana təbiətin çirklənməsinə qarşı hamımız birlikdə mübarizə aparaq. Təbiətin qayğısına qalmaq öz qayğımıza qalmaqdır.

## Dönə-dönə oxudum

«Qəbələ» qəzetinin 5 dekabr 2016-cı il tarixli nömrəsində qələm dostumuz Aslan Cəlilovun «Yabanı bitkilərin tədarükünü gəlirli sahəyə çevirək» adlı yazısını dönə-dönə oxudum. Uşaqlıq və gənclik illərim gözlərim önündə canlandı. Açığını desəm kövrəldim. Doğrudan da ötən əsrin əllinci, altmışıncı illərində meşədən çır alma, alça, armud, itburnu, böyürtkən, zoğal, hətta, gəndalaş bitkisinin meyvəsini yığıb tədarük məntəqəsinə sataraq o qədər pullar almışıq ki. Bu meyvələri satıb özümüzə məktəb ləvazimatı, paltar, ayaqqabı və s. alardıq.

Tanrı özünün əsrarəngiz gözəlliyini və təbii sərvətlərini doğma Qəbələmizdən əsirgəməmişdir. Müxtəlif növ yabanı meyvələr və dərman bitkiləri bu gözəlliyi daha da artırır və dəyərləndirir. Lakin bu cür meyvələr meşələrimizdə yetişdikdən sonra tökülüb məhv olur. İnsanlar bu meyvələrdən və dərman bitkilərindən özlərinə lazımi qədər yığırlar. Qalanı isə çürüyüb gedir. Çaylaqlarda bitən çaytikanı da dərman bitkisidir. Onun yağını xəstələr apteklərdən alıb istifadə edirlər. Bəzən evlərdə onun cemini də hazırlayırlar. Həmçinin bir sıra başqa meyvə və bitkilərin də.

Yaxşı olar ki, böyük yaşayış məntəqələrində gələcəkdə yabanı bitkilərin alınması üçün tədarük məntəqələri açılsın.

Əlbəttə, bu, əhalinin maddi vəziyyətinin də yaxşılaşmasına xeyli dərəcədə kömək edər.

**✍ Emin BARATOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**

# Günün tələbləri səviyyəsində

***Hacıalılı bələdiyyəsi Hacıalılı, Şamılı, Çarxana və Şəfili kəndlərini əhatə etməklə Düzəncə ərazisində ən böyük bələdiyyələrdən biri sayılır. Bələdiyyənin sədri İntiqam Dadaşov 2004, 2009 və 2014-cü illərdə keçirilən bələdiyyə seçkilərində səs çoxluğu ilə bu vəzifəyə seçilib. Yəni işində təzə və təcrübəsiz deyil. Bələdiyyə sədri ilə söhbətdən məlum oldu ki, ərazidə yola saldığımız ildə xeyli işlər görülüb və 2017-ci il üçün də xeyli görüləsi işlərin əsası qoyulub.***

Belə ki, 4 km-ə yaxın kəndarası yollara çınqıl döşənib, kənd qəbirstanlıqlarında təmizlik işləri aparılıb, aztəminatlı ailələrə yardımlar göstərilib və bəzi imkansız ailələr qismən torpaq vergisindən azad olunub. Havaların əlverişsiz keçməsinə baxmayaraq payızlıq dənli bitkilərin əkini müvəffəqiyyətlə başa çatıb. Bu sahədə torpaq mülkiyyətçiləri ilə yanaşı fermerlər də böyük fədakarlıq göstəriblər. Sahibkarlardan Fədail Rəhimovun, Mətləb Süleymanovun və Fikrət Məmmədovun uğurları göz qabağındadır. Fermerlər təkcə əkinçiliklə yox, həm də heyvandarlıq və üzümçülüklə də məşğul olurlar.

Bələdiyyənin ərazisində 2017-ci ilin yazında texniki bitkilərdən olan tütünün əkilməsi üçün 2 hektara yaxın torpaq sahəsi, eləcə də barama bəsləmək üçün bələdiyyə balansında olan binadan 2 otaq ayrılıb. Ərazidə tut tingləri əkməkdən ötrü 1000-ə qədər quyu qazılıb.

Söhbət əsnasında bələdiyyənin sədri onu da qeyd etdi ki, hazırda insanların içməli suya olan tələbatı ödənilir. Artezan quyularının işləməsi daim nəzarətdə saxlanılır, elektrik transformatorlarının təmirinə köməklik göstərilir. Yerlərdə bələdiyyə komitələri yaradılıb ki, bu da əhali ilə sıx şəkildə işləməyə böyük imkanlar verir. Bütün bunlardan nəticə çıxartmaq olar ki, Hacıalılı Bələdiyyəsi işlərini günün tələbləri səviyyəsində qurub və insanların rifah halının yaxşılaşması üçün bütün imkanlardan istifadə edir.

**✍ Cəlil SƏFƏRÇİNOV,**
**«Qəbələ»nin ştatdankənar müxbiri.**

*Sadə peşə adamları*

## Montyor

Montyorluq asan peşə deyil. Bu peşənin özünə görə çətinlikləri var. Ona görə ki, montyorun iş gününün böyük hissəsi elektrik və telefon dirəklərində nasaz xətləri təmir etməklə keçir. Belə peşə sahiblərindən biri Təbriz Rüstəmovdur. O, 17 il keçmiş milis mühafizə bölməsində siqnalizasiya sistemlərinin quraşdırılması işində çalışmışdır. Düz 22 ildir ki, rayon telekommuniksiya qovşağında işləyir və peşəsinə ürəkdən bağlıdır. O, abonetlərin çağırışına əsasən telefon xətlərindəki nasazlığı vaxtında təmir edir. Ona görə də abonentlər ondan razılıq edirlər. Bu işgüzar montyor dəfələrlə idarə rəhbərityinin təşəkkürünə və mükafatına layiq görülüb. Təbriz özü deyir ki, mən peşəmdən narazı deyiləm. Bu peşəmlə qazandığım halal ruzi ilə 4 övlad boya-başa çatdırmışam, hamısı da ailəlidir. Oğlum Səxavətlə fəxr edirəm. O, öz zəhməti ilə ali təhsil alıb, hazırda fəlsəfə doktorudur.

Mən gündəlik işimdə telefon sahiblərinə fərq qoymadan xidmət etməyə hazıram. Çünki bunu məndən peşəm tələb edir.

**"Qəbələ".**

# Toxumçuluğun bazası genişləndirilir

***Taxıl strateji məhsuldur. Təsadüfi deyil ki, bütün dövrlərdə bu və ya digər ölkənin ərzaq təhlükəsizliyi məhz taxıl istehsalından asılı olmuşdur və indinin özündə də belədir. Bu səbəbdən dövlət başçısı İlham Əliyev ölkəmizdə taxılın istehsalını artırmaq, idxaldan azad olmaq vəzifəsini qarşıya qoymuşdur və cənab Prezident rayonlara səfəri zamanı kollektivlərlə görüşlərdəki çıxışlarında kənd təsərrüatının, onun mühüm sahəsi olan taxılçılığın inkişaf etdirilməsinə, əkin sahələrinin məhsuldarlığının artırılmasına dair tapşırıqlarının yerinə yetirilməsinə xysüsi önəm verir.***





Sözsüz ki, əkin sahələrinin məhsuldarlığının artırılmasında keyfiyyətli toxum növləri mühüm rol oynayır. Hazırda rayonumuzda 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Onlar yerli fermerləri toxumla təmin etməklə bərabər, digər rayonların da əkinçilərinə elit və yüksək reproduksiyalı buğda və arpa toxumlarının satışını təşkil edir. Toxumçuluqla məşğul olan «Gilan MMC», «Həsrət», «Səbuhi» kəndli fermer təsərrüfatları, eləcə də fiziki şəxslər Tehran Səddinovun və Ağalət Baxışovun təsərrüfatları ötən il 1879 ton yüksək kondisiyalı toxum istehsal etmişlər. Bunun 1255 tonu buğda, 624 tonu isə arpa toxumudur. İstehsal edilmiş həmin toxumlar 148 fermer təsərrüfatına satılmışdır.

Toxum istehsalında «Gilan» MMC və «Həsrət» kəndli fermer təsərrüfatı ən yuksək göstəricilər əldə etmişlər. Məsələn, ötən il «Gilan» MMC 346 ton buğda, 293 ton arpa, «Həsrət» kəndli fermer təsərrüfatı isə 409 ton buğda, 82 ton arpa 1-ci və 2-ci reproduksiyalı toxum istehsal etmişdir. Toxumçuluq təsərrüfatları səpinqabağı istehsal etdikləri toxumların nümunələrini laboratoriyada analiz etdirmiş, toxumun təmizliyi, cücərmə qabiliyyəti, xəstəliyə davamlığı müəyyən edilmişdir.

Təcrübə göstərir ki, məhsuldarlığın və məsulun keyfiyyətinin yüksəldilməsində hər bir regionun torpaq iqlim şəraitinə uyğun intensiv sort toxumlar yetişdirilməlidir. Aparılmış sort-sınaq işlərinin nəticəsinə görə bizim rayonumuzda toxumçuluqla məşğul olan təsərrüfatlar bu məsələyə xüsusi fikir vermişlər. Həmin təsərrüfatlar bizim rayonun torpaq-iqlim şəraitini nəzərə alaraq «Qobustan», «Azəri», «Aran», «Bezostya» buğda toxumu sortunun, «Qarabağ-22», «Cəlilabad 19» arpa toxum sortunun yetişdirilməsinə üstünlük vermişlər.

Bir məsələni də qeyd etmək lazımdır. Keçən il səpin qabağı taxıl əkini ilə məşğul olan fermer və torpaq sahibkarlarının hər biri səpin normasını müəyyənləşdirmək məqsədilə toxum nümunələrini rayonun toxum müfəttişliyinin laboratoriyasında analiz etdirmiş və onun səpin üçün keyfiyyətini göstərən şəhadətnamə almışlar.

Cari ilin payızlıq taxıl əkini üçün toxumçuluq təsərrüfatları 1302 hektar sahədə toxumluq taxıl səpini aparmışlar. Məhsuldarlığı artırmaq üçün sahələrdə becərmə və ziyanvericilərə qarşı mübarizə işlərinə başlanılmışdır. Məqsəd bu ilin taxıl yığımı mövsümündə hər hektardan 35-40 sentner toxumluq taxıl istehsal etməkdir.

**✍ Təbriz BABAYEV,**
**Şəki regionaol TSC-nin Qəbələ rayonu üzrə baş aqronomu.**

## Qəbələdə zəlzələ olub

Yanvarın 14-də saat 19:28-də Xınalıq kəndindən 17 kilometr cənub-qərbdə, Qəbələ rayonu ərazisində 3,4 bal gücündə yeraltı təkanlar qeydə alınıb.

Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, zəlzələnin ocağı yerin 8 kilometr dərinliyində yerləşib.

Zəlzələ hiss olunmayıb.